*Bu il sosial infrastrukturla bağlı önəmli addımlar atılacaq. Onlarla məktəb, tibb müəssisəsi tikiləcək, təmir ediləcəkdir. "DOST" mərkəzlərinin yaradılması daha geniş vüsət alacaq. Artıq iki mərkəz keçən il istifadəyə verilib və ümumiyyətlə, 30-dan çox "DOST" mərkəzinin yaradılması nəzərdə tutulur.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

# Bu il yeni DOST mərkəzləri, sosial xidmət müəssisələri yaradılacaq

"Azərbaycan Respublikası regionlarının 2019--2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransdakı nitqində Prezident İlham Əliyev bildirdi ki, ötən il sosial sahədə görülmüş işlər bizim siyasətimizi əks etdirir, bizim gücümüzü göstərir və bundan sonra da bu sahə daim diqqət mərkəzində olacaqdır. Dövlət başçısı, eyni zamanda, keçən il sosial infrastrukturun yaradılması ilə bağlı önəmli addımlar atıldığını -- 84 məktəb, 60 tibb müəssisəsi tikildiyini və təmir edildiyini, müxtəlif layihələrin həyata keçirildiyini diqqətə çatdırdı. Prezident "DOST" mərkəzlərinin yaradılmasından söz açdı və bu işlərin davamlı olacağını vurğuladı.

Qeyd edək ki, `dövlət başçısının tapşırıqları əsasında son illərdə yeni istiqamətlər üzrə fəaliyyət göstərən bir sıra sosial xidmət müəssisələri, habelə Heydər Əliyev Fondunun sosial layihələrindən biri olan, dövlət uşaq müəssisələrinin məzunları üçün "Məzun evi" sosial müəssisəsi yaradılıb. Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi isə istifadəyə hazırlanır.

Prezident İlham Əliyevin 1 iyun 2019-cu il tarixli sərəncamı xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin istiqamətlərini və əhatə dairəsini genişləndirib, uşaqlar və digər şəxslər üçün sosial xidmət mərkəzlərinin sayı 3,5 dəfə artıb.

Hazırda 200-ə yaxın mərkəz tərəfindən əsasən uşaqlardan ibarət şəxslərə reabilitasiya yönümlü sosial xidmətlər göstərilir. Sosial xidmətlər çətin həyat şəraitinə məruz qalan şəxslərə və ya ailələrə təkbaşına bacara bilmədikləri çətinliklərin aradan qaldırılmasında dövlətin sosial dəstəyini göstərən tədbirlər sistemidir. Ölkəmizdə üç istiqamət – evlərdə, sosial xidmət müəssisələrində və sosial sifarişlər üzrə layihələr çərçivəsində göstərilən xidmətlər xüsusi qayğıya ehtiyacı olan 20 mindən çox insanı əhatə edir. Onlardan 50 faizə və ya 10 minə yaxını məhz ixtisaslaşmış QHT tərəfindən icra edilən layihələr çərçivəsində xidmətlərlə təmin olunur.

Sərəncamın icrası işləri çərçivəsində bölgələrdə yeni sosial xidmət və reabilitasiya mərkəzləri yaradılıb. Nəticədə, günərzi qayğı mərkəzlərinin sayı 28-dən 70-ə, icma əsaslı sosial reabilitasiya mərkəzlərinin sayı 22-dən 49-a çatıb. Həmçinin autizm və daun sindromlu uşaqlar üçün 14 psixoloji yardım mərkəzi yaradılıb. Eşitmə və nitq qabiliyyəti zəif olan sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya və surdoloji xidmət mərkəzlərinin sayının 2-dən 10-a, məişət zorakılığından zərər çəkmiş şəxslər üçün yardım mərkəzlərinin sayının 1-dən 15-ə, görmə imkanları məhdud uşaqlar üçün sosial reabilitasiya mərkəzlərinin sayının 1-dən 3-ə çatdırılması təmin edilib. Ahıllar üçün 5 günərzi qayğı mərkəzi, sağlamlıq imkanları məhdud uşaqlara davranış üzrə valideynlər üçün 10 dəstək mərkəzi və başqa müəssisələr də yaradılıb.

Rayonlarda yaradılan günərzi qayğı mərkəzlərində 3–12 yaş arası olan, bir qismi sağlamlıq imkanları məhdud yüzlərlə uşaq hərtərəfli qayğı ilə əhatə olunub. Burada onlar gündə 3 dəfə yeməklə təmin olunur, məktəbdə təhsil alan uşaqlara pedaqoqlar tərəfindən ev tapşırıqlarının hazırlanmasında kömək edilir. Bundan əlavə, onlara psixoloji dəstək göstərilir və həmçinin uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə müxtəlif tədbirlər təşkil olunur. Eyni zamanda, icra olunan sosial xidmət layihələri ölkədə yeni iş yerlərinin açılmasına, məşğulluğun təminatı işlərinə də öz töhfəsini verib. Belə ki, hazırda hər biri ilə əmək müqaviləsi bağlanılmaqla 1586 nəfər çalışır. Onların sırasına psixoloq, tərbiyəçi, pedaqoq, loqoped, terapevt, nevropatoloq, fizioterapevt və digərləri daxildir.

Prezidentin uğurlu sosial islahatlar proqramı ölkəmizdə yeni reabilitasiya mərkəzlərinin yaradılmasını, bərpa mərkəzləri şəbəkəsinin genişlənməsini təmin edib. Bu gün ƏƏSMN-nin 14 bərpa-müalicə müəssisəsi vardır. Bu reabilitasiya müəssisələrində əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara ambulator və stasionar qaydada xidmətlər göstərilir və onlar reabilitasiya vasitələri ilə təmin edilirlər. Bölgələrdə yaşayanlara səyyar xidmətlər təşkil edilir, əlil və sağlamlıq imkanları məhdud uşaqlara ehtiyaclarına uyğun reabilitasiya vasitələri yaşadıqları rayonlarda, hətta evlərdə təqdim olunur.

Son illərdə Respublika Əlillərin Bərpa Mərkəzində, Uşaq Bərpa Mərkəzində yüksək səviyyəli reabilitasiya şəraiti yaradılıb. Ötən ilin sonlarında Yevlax və Naftalan şəhərlərində əlilliyi olan şəxslər üçün regional bərpa mərkəzləri, Bakının Xəzər rayonundakı Mərdəkan müalicə pansionatı və Şağan əlilliyi olan şəxslər üçün müalicə pansionatı əsaslı təmir və yenidənqurmadan sonra müasir avadanlıq təchiz edilməklə istifadəyə verilib. Hazırda Sumqayıt, Şəki, Şirvan, Xaçmaz, Lənkəran regional bərpa mərkəzlərində əsaslı təmir və yenidənqurma işləri aparılmaqla, müasir reabilitasiya şəraiti yaradılır. ƏƏSMN-nin sosial xidmət müəssisələrində 1300 nəfər daimi dövlət təminatında yaşayır ki, onlardan 1200-ə yaxını məhz əlilliyi olanlar və sağlamlıq imkanları məhdud uşaqlardır. Eyni zamanda, reabilitasiya yönümlü sosial xidmətlərlə təmin edilən 10 minədək şəxsin 90 faizdən çoxu məhz əlillər və sağlamlıq imkanları məhdud uşaqlardır. Evlərində sosial xidmət göstərilən 9700-dək şəxsin isə 2,1 min nəfəri əlillərdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər ki, dövlət başçısının fərmanına əsasən vətəndaşlara xidmət məqsədilə ötən il Bakının Yasamal və Xəzər rayonlarında yaradılmış DOST mərkəzləri şəbəkəsinin 2020-ci ildə ölkəmizin regionları üzrə genişləndirilməsinə başlanacaq. Regionlarda (Abşeron, Sumqayıt, Bərdə, Quba, Sabirabad) 5 mərkəzin təmir-tikinti işləri aparılacaq.

"Azərbaycan Respublikası regionlarının 2019--2023 illər üzrə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın birinci ilinin yekunlarına həsr olunmuş konfransın iqtisadiyyat üzrə panel iclasında Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev ötənilki inqilabi sosial islahatlardan bəhs edərək, əhalinin gəlirlərinin ciddi artımını təmin edən uğurlu nəticələrin, ümumən sosial müdafiə və aktiv məşğulluq proqramlarının regionların əhalisini də geniş şəkildə əhatə etdiyini deyib. O bildirib ki, ötən il şəhid ailələrinə və müharibə əlillərinə nazirlik tərəfindən 2018-ci illə müqayisədə 50 faiz çox olmaqla 934 mənzil, 2019-cu ildə nəzərdə tutulduğundan 3,2 dəfə çox olmaqla 600 avtomobil təqdim edilib. Həmin mənzillərdən 550-si, avtomobillərdən isə 480-ni regionların sakinlərinə verilib. Vurğulayıb ki, Prezident İlham Əliyevin tapşırığına əsasən 2020-ci ildə müharibə əlillərinə və şəhid ailələrinə 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. Onların əksəriyyəti regionlarda veriləcək.

Nazir S.Babayev konfransın panel iclasındakı çıxışında bu il regionlarımızda əlilliyi olan şəxslər üçün daha 5 bərpa mərkəzinin (Xaçmaz, Şəki, Lənkəran rayonlarında, Şirvan və Sumqayıt şəhərlərində), 2 sosial xidmət müəssisəsinin (Göygöl və Şamaxı rayonlarında) əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə veriləcəyini deyib. O, həmçinin 2020-ci ildə Şəmkir və Qəbələ rayonlarında uşaq bərpa mərkəzlərinin, Quba və Bərdə rayonlarında peşə hazırlığı mərkəzlərinin yaradılmasının planlaşdırıldığını da diqqətə çatdırıb.






*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*